# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 258/7** **16 dekabr 2014-cü il**

**Xarici tərəfdaşlarla əməkdaşlığa dair saziş və memorandumların hazırlanması və imzalanması barədə**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatımızın hər bir sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində həyata keçirdiyi tədbirlərə, o cümlədən Auditorlar Palatasının 2014-2016-cı illər üzrə və Palata Şurasının 2014-cü il üzrə iş planlarının "Xarici tərəfdaşlarla əməkdaşlığa dair saziş və memorandumların hazırlanması və imzalanması" barədə 5.6-cı və 26-cı müvafiq bəndlərinin icrası ilə əlaqədar, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış hesabat xarakterli arayışı və Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

**1.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış hesabat xarakterli arayış nəzərə alınsın (əlavə olunur).

**2**. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Beynəlxalq əlaqələr üzrə Komitəyə (L.Bayramova) tapşırılsın ki, Auditin inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq, 2015-ci ildə müvafiq xarici tərəfdaşlarla, o cümlədən Hindistanın Andlı Mühasiblər İnstitutu, Beynəlxalq Mühasibat Şəbəkələrinin və Assosiasiyalarının Avropa Qrupu (EGİAN), Avropa Mühasiblər Federasiyası (FEE) və digərləri ilə əməkdaşlıq sazişlərinin bağlanması istiqamətində işləri davam etdirsinlər.

**3.** Bu qərarın mətni Azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**